

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 45 (23.687)

*6 mart 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## Rəsmi xronika



Martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilib. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qurultayda videoformatda çıxış edib. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayını açıq elan etdikdən sonra Dövlət Himni səsləndirilib, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qurultayda giriş nitqi söyləyib. Giriş nitqində ərazi bütövlüyümüzün bərpa edilməsi və Vətən müharibəsində parlaq Qələbənin qazanılmasının əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir.

Prezident İlham Əliyev bildirib ki, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı qoyulan hədəflərə çatırıq. Ölkəmizin başçısı bildirib ki, Azərbaycanın uğurlu enerji və nəqliyyat siyasəti bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, dahi rəhbərin siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını ümummilli liderin ətrafında birləşdirdi.

İqtisadi və xarici siyasətdə qazanılan uğurlardan danışan dövlətimizin başçısı bildirib ki, hərbi sahədə müharibə bizim şanlı səhifəmizdir.

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə:

Əsgərova Məhsəti Qasım qızı – **"Əməkdar müəllim"** fəxri adı ilə;

Həsənova Xumar Qurban qızı – **"Əməkdar həkim"** fəxri adı ilə;

Bağırova Fəxrəntac Salman qızı

Quliyeva Məhsəti Məmməd qızı – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 mart 2021-ci il*

## İmtahanların vaxtında və şəffaf şəkildə keçirilməsi diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi aidiyyəti vəzifələrin icrasını fevral ayı ərzində də uğurla həyata keçirib. Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib və 1 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 2 qərarı dəyişdirilib.

Fevralın 24-dən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 14 oktyabr 2020-ci il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsi başlayıb. 103 vəzifənin tutulması üçün, ümumilikdə, 341 namizədin iştirak etdiyi müsahibə mərhələsi martın 13-ə qədər davam edəcək.

Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq təhsilverənlərin sertifikatlaşdırılması imtahanlarının keçirilməsi fevral ayında da davam edib. Martın 1-nə qədər, ümumilikdə, 2944 təhsilverən sertifikasiya imtahanında iştirak edib. Onlardan 1539-u müvafiq keçid balını toplayıb. Muxtar respublika üzrə riyaziyyat, ibtidai sinif, Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin sertifikasiya imtahanları tam başa çatdırılıb.

Fevral ayı ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğu sahəsində təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 66 nəfər, müəllimlərin işə qəbulu və sertifikasiyası üçün keçirilən sınaq imtahanlarında isə 112 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" mövzusunda tədbir təşkil edilib



***"Naxçıvan" Universitetində "Naxçıvanbank" və "Naxçıvansığorta" Açıq Səhmdar cəmiyyətlərinin təşkilatçılığı ilə "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" mövzusunda tədbir keçirilib.***

"Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva çıxış edərək bildirib ki, muxtar respublikamızda rəqəmsal ödəniş infrastrukturunun inkişaf etdirilməsi, yeni xidmətlərin tətbiqi, rəqəmsal ödənişlər üzrə maarifləndirmə və təbliğatın gücləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Bu tədbirin keçirilməsində isə əsas məqsəd savadlı, peşəkar iqtisadyönümlü mütəxəssislərinin hazırlanmasına dəstəkdir.

"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Azər Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikada bank sektoru da daim dövlət qayğısı ilə əhatə olunub. Muxtar respublikada fəaliyyət göstərən ən böyük banklardan biri də Naxçıvanbankdır. Bank bir çox beynəlxalq pul köçürmələri sistemləri ilə əməkdaşlıq edir. Həmçinin muxtar respublika ərazisində 43 bankomat, 68 ödəmə terminalı, 934 POS-terminalla bu sahədə liderdir. Bank müştərilərə ən müasir və rahat şəraitdə xidmət etmək üçün dayanmadan özünü yeniləmək, inkişaf etdirmək üçün çalışır. Buna misal olaraq ən müasir sistemimiz olan "İnternet bankinq" xidmətini göstərə bilərik. İşlərin texniki tərəfinin yaxşılaşdırılması ilə yanaşı, kadr potensialının artırılması, yenilikçi, savadlı, intellektli və kreativ kadrların "Naxçıvanbank" ASC-də işlə təmin edilməsi və onların peşəkarlığının artırılması da əsas prioritet istiqamətlərimizdəndir. Bu gün keçirilən tədbirin əsas məqsədlərindən biri də Naxçıvanbank üçün kadr ehtiyatı yaratmaq, fərqlənən gəncləri gələcəkdə öz sıralarımızda görməkdir.

İki hissədən ibarət olan tədbirin təlim hissəsində "Naxçıvanbank" və "Naxçıvansığorta" ASC-nin peşəkar əməkdaşları müxtəlif mövzulara toxunaraq, tələbələri bank və sığorta sektoru ilə tanış edib, bank karyerası üçün vacib bir sıra praktik bilik və tövsiyələr verib, iş həyatında qazandıqları təcrübələri onlarla bölüşüblər. Tədbirin müzakirə hissəsində tələbələri maraqlandıran suallar cavablandırılıb.

Sonda fərqlənən tələbələr arasından 7 nəfər seçilib və onların 5-i "Naxçıvanbank", 2-si isə "Naxçıvansığorta" ASC-nin müxtəlif şöbələrində 15 günlük təcrübə keçmək şansı əldə edib.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Yüksəkkeyfiyyətli rabitə xidmətinin təşkili və yeni texnologiyaların tətbiqi diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bu gün muxtar respublikada rabitə və yeni texnologiyaların inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi uğurla davam etdirilir.*





Muxtar respublikada yeni texnologiyalar tətbiq etməklə rabitə və internet xidmətinin səviyyəsi ilbəil yüksəldilir, maddi-texniki baza gücləndirilir, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilir, yeni rabitə evləri inşa olunur. İstər şəhər, istərsə də kənd yaşayış məntəqələrinin rabitə və informasiya infrastrukturunun müasirləşdirilməsi istiqamətində reallaşdırılan tədbirlər sakinlərin bu xidmətlərdən səmərəli istifadəsinə geniş imkanlar açır. Muxtar respublika əhalisinə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilir.

Nazirliyin əməkdaşları tərəfindən evlərdə rabitə xətlərinə və abunə qurğularına baxış keçirilir, təmir işləri aparılır. Rabitə xətləri və abunə qurğularında yaranan nasazlıqlar qısa zamanda aradan qaldırılır.

Ötən ay ərzində 210 abonent genişzolaqlı ADSL (Asimmetrik rəqəmsal abunəçi xətti) internetlə təmin olunub. Həyata keçirilən kompleks tədbirlərin davamı olaraq əhalinin internetə olan tələbatının artırılması məqsədilə bir sıra işlər həyata keçirilməkdədir. Belə ki, ilkin olaraq Naxçıvan şəhərində bir sıra yaşayış məntəqələri üzrə fəaliyyət göstərən yeni nəsil NGN tipli Avtomat Telefon stansiyalarına internet kartları əlavə edilərək internet istifadəçilərinin sayının artırılmasına başlanılıb. Hazırda Naxçıvan şəhərinin Çənlibel məhəlləsində 160, Əlincə məhəlləsində 160, Əliabad qəsəbəsində 160, Qaraçuq kəndində 160 və mərkəzi Avtomat Telefon Stansiyasında 256 yerlik olmaqla, internet kartlarının sayı artırılıb ki, bütün bunlar da, ümumilikdə, 900-ə yaxın internet istifadəçisinin sayının artmasına şərait yaradıb. Bu tədbirlərin davamı olaraq rayon mərkəzlərində və kəndlərində də əhalinin internetə olan tələbatını nəzərə alaraq yeni nəsil NGN tipli Avtomat Telefon stansiyalarında internet kartlarının sayının artırılması nəzərdə tutulub və bu sahədə müvafiq işlər davam etməkdədir.

Hazırda ADSL (Asimmetrik rəqəmsal abunəçi xətti) və GPON (Giqabit passiv optik şəbəkə) internetin tarifləri 1 Mbt/s-12 manat, 2 Mbt/s-15 manat, 3 Mbt/s -18 manat, 4 Mbt/s-20 manat, 5 Mbt/s-25 manat, 6 Mbt/s-30 manat, 8 Mbt/s isə 40 manat təşkil edir.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin *nakhinternet.az* internet səhifəsində internet istifadəçiləri üçün yaradılan bölmədə Asimmetrik rəqəmsal abunəçi xətti və Giqabit passiv optik şəbəkənin balanslarının artırılması xidməti və modemlərin qoşulması üçün istifadəçi təlimatları yerləşdirilib. Bunlarla yanaşı, mərkəzdə internet istifadəçiləri üçün "116" nömrəli sorğu-məlumat xidməti də fəaliyyət göstərir ki, sakinlər real iş vaxtı rejimində internetlə bağlı yaranan problemlərlə əlaqədar həmin nömrə vasitəsilə əlaqə saxlayır ki, mərkəzin aid əməkdaşları tərəfindən bütün sorğulara və müraciətlərə operativ yanaşmaqla bütün problemlər aradan qaldırılır.

Ötən ay ərzində "Evədək optika" layihəsi də uğurla davam etdirilib. Layihə çərçivəsində 5 fərdi mənzilə fiber-optik kabel xətləri çəkilib və zəruri avadanlıqlar quraşdırılıb. "Evədək optika" layihəsi müasir standartlara cavab verən GPON (Gigabyte Passive Optical Network – Giqabit tutumlu passiv optik şəbəkə) texnologiyası əsasında həyata keçirilir. Texnologiya istifadəçilər üçün genişzolaqlı internet bağlantısını və yüksəkkeyfiyyətli xidməti təmin edir.

Müraciətlərinə uyğun olaraq əhaliyə və dövlət qurumlarına texniki dəstək və metodik köməkliklər göstərilib, yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində zəruri texniki tədbirlər həyata keçirilib.

Muxtar respublikada yüksəksəviyyəli rabitə xidmətinin təşkili, yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə nümunəvi rabitə və internet xidmətləri göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət növbəti sərgi-satış təşkil olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun tədbirlər planına uyğun olaraq Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı təşkil olunub.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, bu gün muxtar respublikada ulu öndər Heydər Əliyevin miras qoyduğu ənənələrin davam etdirilməsi nəticəsində milli dəyərlər sistemi yeni dövrün tələblərinə uyğun beynəlxalq mədəni irs siyahısında yeni səhifələr açır. Muxtar respublikada ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr, beynəlxalq rəsm festivalları və milli dəyərlərin əsas daşıyıcısı olan xalq yaradıcılığının müxtəlif sahələri üzrə festivalların təşkil edilməsi ənənə halını alıb. Qeyd olunub ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə muxtar respublikamızda qadınların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün xalçaçı, dərzi, toxucu, bərbər, dayə kimi peşə kursları təşkil olunur və bu kurslara sağlamlıq imkanları məhdud qadınlar da cəlb olunurlar.

Həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində diyarımız misligörünməmiş uğurlara imza atır, inkişaf edir, müasirləşir. Bütün sahələrdə olduğu kimi, qadınların məşğulluğunun təmin olunması da diqqətdə saxlanılır, onların fəaliyyəti üçün hər cür şərait yaradılır.





Vurğulanıb ki, yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır. Sevindirici haldır ki, muxtar respublika qadınları yaradılmış bütün imkanlardan istifadə edərək təhsil alır, peşə biliklərini artırır, ictimai-siyasi, mədəni proseslərdə iştirak edir, dövlət və özəl sektorun bütün qurumlarında fəaliyyət göstərirlər.

Naxçıvanda xüsusi istedadları ilə fərqlənən, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınlara da xüsusi diqqət göstərilir. Bütün qadınlar cəmiyyətin bərabərhüquqlu üzvü kimi məşğulluq proqramlarına cəlb edilir, onların rifah hallarının yüksəldilməsi üçün əl işlərinin sərgi-satışı təşkil olunur.

Surə Seyid məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət növbəti sərgi-satışın təşkil olunmasını bu kateqoriyadan olan şəxslərə dövlət qayğısının daha bir ifadəsi olduğunu bildirib və iştirakçılara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar komitə tərəfindən aztəminatlı ailənin üzvü və sağlamlıq imkanları məhdud olan qadınların peşə kurslarına cəlb olunması üçün müvafiq tədbirlər görülür. Qadınların dərzi, toxucu, kompüter, aşpaz və sair peşə kurslarına cəlb olunması və istedadlı qadınların əl işlərinin sərgi-satışlarının təşkil edilməsi onların özünüməşğulluğunun inkişafına və sosial vəziyyətlərinin yaxşılaşmasına dəstək xarakteri daşıyır. Dövlət qayğısı sayəsində qadınlarımızın məşğulluğu, onların sahibkarlıq fəaliyyətləri təmin olunur ki, bu da həmin ailələrə böyük dəstəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada müxtəlif peşə kurslarına sağlamlıq imkanları məhdud qadınların da cəlb olunması, onların əl işlərinin sərgi və satışının təşkili həmin qadınlarımız üçün böyük maddi-mənəvi dəstəkdir.

İstedadlı və yaradıcı qadınlar adından Xanım Xudadanova yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıq edib.

Qeyd edək ki, sərgi-satışda istedadlı qadınlarımızın, o cümlədən kəndlərimizdə yaşayan evdar xanımlarımızın, həmçinin Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsi tələbələrinin Texnologiya Mərkəzinin üzvlərinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq mərkəzlərinin dərnək rəhbərləri və üzvlərinin, məktəb və məktəbəqədər müəssisələrin, orta ixtisas və ali təhsil müəssisələrinin, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınlar və rəssamların, məhkum qadınların, eləcə də sərmayə kapitalı verilən qadınların da əl işləri sərgilənəcək.

Qeyd edək ki, sərgi-satış 10 gün davam edəcək.

**Gülcamal TAHİROVA**

# Naxçıvanda qadınlar daim qayğı əhatəsindədirlər

***8 Mart – Beynəlxalq Qadınlar Günü bütün dünyada, eləcə də ölkəmizdə qadınlara verilən dəyəri, göstərilən ehtiramı özündə əks etdirir.***

Azərbaycan qadını tarixin bütün zamanlarında öz ucalığını qoruyub saxlamış, Vətənə, ailəyə sədaqəti, bağlılığı, fədakarlıq və qəhrəmanlığı, ictimai fəallığı ilə seçilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə qadın amilinə yüksək dəyər verərək onların hüquqlarının müdafiəsi, problemlərinin həlli, dövlət idarəçiliyi sistemində təmsil olunması, bütün sahələrdə öz layiqli yerini tutması istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirmiş, qadınların cəmiyyətdəki mövqeyinin əhəmiyyətini vurğulayaraq demişdir: ***“Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi indi də cəmiyyətdə aparıcı rol oynayırlar”.***

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə yanaşı, onların demokratik dövlət quruculuğu prosesində fəal iştirakının hüquqi bazasını yaratmışdır. Həmçinin ulu öndər tərəfindən imzalanmış “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” 1998-ci il 14 yanvar tarixli Sərəncam və “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” 2000-ci il 6 mart tarixli Fərman ölkənin sosial-iqtisadi və mədəni həyatında qadınların rolunun artırılması istiqamətində mühüm əhəmiyyət kəsb etmişdir.

***“Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Bu gün ölkəmiz qadın hüquqları sahəsində möhkəm milli hüquqi baza formalaşdırmaqla yanaşı, eyni zamanda qadın hüquqlarına dair bir sıra beynəlxalq sənədlərə qoşulmuşdur. Eyni zamanda Azərbaycan qadınının ictimai mövqeyinin kompleks şəkildə möhkəmlənməsi üçün ölkəmizdə münbit imkanlar vardır”***, – deyən ulu öndərin siyasi xəttinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə qadın siyasəti daha geniş və müasir şəkildə həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasında da qadınların cəmiyyətdə rolu gündən-günə möhkəmlənir. Azərbaycanda qadın adının həmişə uca tutulduğunu, qadına böyük ehtiram göstərildiyini bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycan qadınının ictimai həyatımızdakı dünənki, bugünkü mövqeyi dilimizə, Vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və Azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuş və gələcəkdə də olacaqdır”.*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara göstərilən diqqətin, onlara verilən dəyərin, hüquqlarının qorunmasına göstərilən qayğının təzahürüdür.

Muxtar respublika əhalisinin 231 min 21 nəfəri, yəni 50 faizi qadındır. Naxçıvan qadınlarının ictimai-siyasi fəaliyyətinin ildən-ilə artması muxtar respublikada həyata keçirilən qadın siyasətinin uğurlu nəticəsidir. Statistik rəqəmlər də bunu təsdiqləyir: hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 24 faizini qadınlar təşkil edir. Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan 1-i qadındır. Bu gün qadınların Yeni Azərbaycan Partiyasında təmsil olunmaları da özünü müsbət yöndə göstərməkdədir. Hazırda muxtar respublika təşkilatı üzvlərinin 24 min 931-i, yəni 44 faizi qadındır ki, onların da 104-ü ərazi ilk partiya təşkilatının sədridir. Sonuncu bələdiyyə seçkilərində üzvlərin 221-ni qadınlar təşkil edib ki, onların da 9-u bələdiyyə sədridir.

Naxçıvan qadınları muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edirlər. Belə ki, muxtar respublikada Ombudsman, nazir, komitə sədri və müavinləri, icra başçılarının müavinləri, rektor, hakim və vəkil vəzifələrində çalışan qadınlarımız da vardır. Həmçinin dövlət qulluğunda işləyənlərin 23, təhsil sahəsində işləyənlərin 70, mədəniyyət sahəsində işləyənlərin 64, səhiyyə və sosial təminat sahəsində işləyənlərin isə 82 faizi qadındır. Təhsil, mədəniyyət, səhiyyə və sosial xidmət müəssisələrində 112 qadın rəhbər vəzifələrdə çalışır. Muxtar respublikada qadınlarımızın idmana cəlb edilməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, muxtar respublikada 9 mindən artıq qadın idmanla məşğul olur ki, bu da idmanla məşğul olanların 26 faizi deməkdir.

Naxçıvan qadınları Azərbaycan elminə mühüm töhfələr verərək elmi dərəcələr almışlar. Belə ki, muxtar respublikada elmlər doktorlarının 4-ü, fəlsəfə doktorlarının isə 100-ü qadındır. Bu da ümumi elmi dərəcəsi olan şəxslərin 33 faizini təşkil edir. 2019-2020-ci tədris ilində ali təhsil müəssisələrinə daxil olan abituriyentlərin 54 faizini, yəni 830-nu qızlar təşkil etmişdir ki, bunların içərisində 500-700 intervalında bal toplayanların 164-ü, yaxud 60 faizi qızlar olmuşdur.

Qadınların sağlamlıqlarının qorunması, dünyaya gələn yeni nəslin sağlam doğulması və böyüməsi, körpə və ana ölümünün minimuma endirilməsinin daim nəzarətdə saxlanılmasının nəticəsidir ki, muxtar respublikada bu sahədə müsbət nəticələr əldə olunmuşdur.

Qadınların məşğulluğunun təmin olunması, müvafiq peşəyə yiyələnmələri üçün də bir sıra tədbirlər görülür, istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün muxtar respublikada xalçaçı, dərzi, ağac üzərində oyma və sair peşə kursları təşkil olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq qadınlar arasında xalq tətbiqi sənət nümunələrinin, milli dəyərlərin yaşadılması istiqamətində işlər və sosial layihələr həyata keçirilir. Milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların rifah hallarının yüksəldilməsi üçün istedadlı qadınların əl işlərindən ibarət yaradıcılıq müsabiqələri, sərgi-satışlar təşkil olunur, mədəni-kütləvi tədbirlərdə onların əsərləri nümayiş etdirilir. İstedadlı, eləcə də sağlamlıq imkanları məhdud, aztəminatlı ailənin üzvü olan qadınların əl işlərinin sərgi-satışı təşkil olunur, bu sərgi-satışlarda əl işləri satılaraq sahiblərinə ödənilir.

Naxçıvan Muxtar Respublikasında qadınların özünüməşğulluqlarının artırılması, eyni zamanda mikrosahibkarlıq fəaliyyətlərinin genişləndirilməsi üçün qrant layihələr həyata keçirilir. Belə ki, 2019 və 2020-ci illərdə Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi və icra etdiyi “Gender həssas dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması” adlı genişmiqyaslı proqrama əsasən Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan “Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” layihəsi və “Naxçıvan Muxtar Respublikasında COVID-19-un təsirinə məruz qalmış qadınlara iqtisadi dəstək” layihəsi çərçivəsində qadınların maliyyə savadlılığının artırılması üçün təlimlər təşkil olunmuş, 102 qadına 69 min 250 manat məbləğində sərmayə kapitalı verilmişdir. Həmçinin aztəminatlı və sağlamlıq imkanları məhdud olan qadınların peşə kurslarına cəlb olunmaları üçün tədbirlər görülmüşdür.

Muxtar respublikada davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, inklüzivliyinin artırılmasında və sosial rifahın yüksəldilməsində qadınlarımızın xüsusi rolu vardır. Hazırda muxtar respublikada 7390 qadın sahibkarlıq fəaliyyəti ilə məşğul olur ki, bu da ötən illə müqayisədə 723 nəfər çoxdur. Son illər ərzində muxtar diyarımızda yüzlərlə yeni ailə təsərrüfatları formalaşıb. Ailə təsərrüfatlarının genişləndirilərək sahibkarlıq subyektlərinə çevrilməsi istiqamətində ötən müddət ərzində muxtar respublikada 1040 ailə təsərrüfatı qeydiyyata alınmışdır ki, bunun da 79-u qadınlar tərəfindən idarə olunur.

Muxtar respublikada qadınların fəaliyyəti dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, mükafatlara layiq görülür, medal və nişanlarla təltif edilirlər. Belə ki, muxtar respublika qadınlarının 170-i Azərbaycan Respublikasının, 181-i isə Naxçıvan Muxtar Respublikasının fəxri adına və mükafatına layiq görülmüş, 153 qadın orden, medal və nişanlarla təltif olunmuşdur.

Müasir dövrdə qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirən cənab İlham Əliyev demişdir: ***“Qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini davamlı dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çevirərək nəsillərin varisliyi prinsipini qoruyur və ədəbi-ictimai, elmi-mədəni fikir salnaməmizdə iz qoymuş maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirirlər”.***

*Hər bir Azərbaycan qadını kimi, muxtar respublika qadınlarının da bütün uğurlarının təməlində dövlətimizin böyük dəstəyi və davamlı qayğısı dayanır. Öz sələflərinin yolunu böyük ənənəvilik prinsipi ilə davam etdirən muxtar respublika qadınlarının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi xalqımızın uğurlu, xoşbəxt sabahına, firavanlığına əsaslı təminatdır.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Qars müqaviləsi – 100*

# Qars müqaviləsi Naxçıvanın muxtariyyətinin təminatıdır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il 8 fevral tarixdə "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".***

Qədim tarixə malik olan Naxçıvanın igidləri tarixboyu yadellilərin hücumuna sinə gərmiş, torpaqlarımızın və xalqımızın müstəqilliyinin təmin olunması üçün yorulmadan mübarizə aparmışlar. Təsadüfi deyil ki, Yaxın Şərq və Cənubi Qafqazda ən qədim qalatipli yaşayış yerləri də məhz Naxçıvanın ərazisindədir. Lakin XIX-XX əsrlərdə kapitalizmin inkişafı, formalaşan imperiyalar xalqımızın ərazi bütövlüyü və Naxçıvan üçün yeni təhlükə yaratmışdır. XX əsrin əvvəlində kəskinləşən imperialist müharibələri, xüsusilə təhlükəli olmuşdur.



Ermənilər tərəfindən dağıdılan Kilit kəndi



Ermənilər tərəfindən dağıdılan Kotam kəndi

Azərbaycan xalqının tarixi həmişə böyük Türkiyə xalqının taleyi ilə sıx bağlı olmuşdur. XX əsrin əvvəlində Mustafa Kamal Atatürkün rəhbərliyi ilə milli istiqlal müharibəsində qələbə çalaraq Türkiyə Cümhuriyyətini yaradan türk xalqı Azərbaycan xalqının milli müstəqilliyinin qorunmasında və Cənubi Qafqazda sülhün təmin edilməsində maraqlı idi. Məhz elə buna görə 16 mart 1921-ci ildə Türkiyə ilə Rusiya arasında bağlanan Moskva və 13 oktyabr 1921-ci ildə Türkiyə, Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan arasında bağlanan Qars müqaviləsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması öz əksini tapmışdı. Bu baxımdan Qars müqaviləsi, xüsusilə əhəmiyyətli idi. Bu müqavilədə Azərbaycanın ərazi bütövlüyü təmin olunmuş, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsi öz əksini tapmışdı. Müqavilənin 5-ci maddəsinə əsasən Ermənistan Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razı olmuş və onun sərhədlərini tanımışdı. Qars müqaviləsinin 1-ci maddəsinə əsasən müqaviləni imzalayan tərəflər, o cümlədən Ermənistan indiyədək imzalanan müqavilələri ləğv olunmuş və öz qüvvəsini itirmiş hesab edirdilər.

Ona görə də Ermənistan müqaviləni imzaladıqdan sonra öz üzərinə götürdüyü öhdəliyə, nəinki əməl etməmiş, hətta Türkiyə və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməmiş, bölgədə imperialist siyasətini davam etdirən Rusiya isə Ermənistanı dəstəkləmişdir. 1929-cu il 18 fevralda Moskva və Qars müqavilələrinin şərtlərini kobudcasına pozan Zaqafqaziya MİK totalitar inzibatiamirlik şəraitində Naxçıvan MSSR-in doqquz kəndinin – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, habelə Kilit kəndinin torpaqlarının bir hissəsinin, əkin sahələri və torpaqları ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir. Bu əraziləri ələ keçirən Ermənistan 1990-cı ildə Naxçıvanı Azərbaycandan təcrid etmiş, Naxçıvana və Dağlıq Qarabağa qarşı açıq müharibəyə girərək öz ərazi iddialarını həyata keçirməyə başlamışdı. 1992-1993-cü illərdə Sovet ordusunun köməyi ilə aparılan müharibə nəticəsində Qarabağ, onun ətrafındakı 7 rayon – Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam, Füzuli rayonları Ermənistanın və onun havadarlarının silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Qarabağ ətrafındakı rayonların işğalının məqsədi bu bölgədə yaşayan erməniləri Azərbaycandan təcrid etmək və Azərbaycan torpaqlarını Ermənistana birləşdirməkdən ibarət idi. Ermənistanın deportasiya və işğal siyasəti nəticəsində Azərbaycan öz torpaqlarında bir milyondan artıq qaçqını yerləşdirməyə məcbur oldu.

2020-ci ildə müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı, cənab İlham Əliyevin rəhbərliyi ilə qalibiyyətli yürüşü, 44 günlük azadlıq müharibəsi nəticəsində doğma torpaqlarımız – Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa, Hadrut, Şuqovuşan, Xocavənd, Kəlbəcər, Ağdam, Laçın və Xocalı rayonlarının kəndləri işğaldan azad olunmuşdur. Azərbaycan Ordusunun hücumuna davam gətirməyən düşmən noyabrın 10-da kapitulyasiya haqqında Bəyanata imzalamağa məcbur olmuşdur. Artıq torpaqlarımız düşmən tapdağından azaddır. 10 noyabr 2020-ci ildə imzalanan Bəyanata görə Ermənistanın Mehri rayonundan keçərək Naxçıvan Muxtar Respublikasını Azərbaycanın digər rayonları ilə birləşdirəcək dəhlizin açılması nəzərdə tutulmuşdur.

Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun müharibəsindəki qalibiyyəti Naxçıvanın da gələcəkdə ahəngdar inkişafına stimul vermişdir. Beləliklə də tarixi ədalət bərpa olunmuşdur. Qars müqaviləsi isə Naxçıvanın ərazi bütövlüyünün qorunması və təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyətini bu gün də qoruyub saxlamaqdadır.

Ümummilli liderimiz Heydər Əliyev Qars müqaviləsinin əhəmiyyətindən bəhs edərək demişdir: ***"Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".***

*Naxçıvanın tarixində mühüm və əhəmiyyətli məsələ olan Qars müqaviləsi XX əsrdə Naxçıvan ərazi bütövlüyünün təmin olunmasında mühüm rol oynamışdır. Hazırda Azərbaycanın çiçəklənən diyarına çevrilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında dinamik yüksəliş xətti ilə inkişaf etməkdədir.*

**Vəli BAXŞƏLİYEV**
**AMEA-nın müxbir üzvü**

*Yeni nəşrlər*

# "Naxçıvan Muxtar Respublikasının Epidemioloji Atlası"

***Əhalinin sağlamlığının qorunmasında onların tibbi biliklərinin artırılması, xüsusilə səhiyyə maarifi işi vacib məsələdir. Həyata keçirilən belə tədbirlərin ifadəsi kimi muxtar respublikada uşaqlar arasında qoruyucu peyvəndlərin vaxtlı-vaxtında vurulmasını xüsusi qeyd etmək olar. Bu da bəzi yoluxucu xəstəliklərin tamamilə aradan qaldırılmasına, bəzilərinin isə minimuma endirilməsinə səbəb olub. Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə vaxtaşırı aparılan profilaktik və əks-epidemik tədbirlərin nəticəsidir ki, muxtar respublika ərazisində əhali arasında poliemlit, difteriya və malyariya xəstəliyi qeydə alınmır.***





Bu müddəalar cari ildə oxucu ünvanına yol alan "Naxçıvan Muxtar Respublikasının Epidemioloji Atlası"nda öz əksini tapıb. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə çap olunan kitab yüz səhifədən, mündəricat və 4 bölmədən ibarətdir. "Xüsusi təhlükəli xəstəliklər", "İdarə olunan infeksion xəstəliklər", "Karantin tələb etməyən infeksion xəstəliklər" və "Qeyri-infeksion xəstəliklər" adlı bölmələr uyğun xəritə və şəkillərlə oxucuya geniş məlumat almaq imkanı yaradır.

Atlas Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 29 oktyabr 2020-ci il tarixdə Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin açılışında verilmiş tapşırığa əsasən tərtib edilib. İlk nüsxəsi Şahbuz Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin açılışında Ali Məclisin Sədrinə təqdim olunub. Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayevanın rəhbərliyi ilə işıq üzü görən kitabın əhalinin səhiyyə maarifində oynayacağı rol nəzərə alınaraq muxtar respublikanın tibb və orta ixtisas və ali məktəblərinə, baytarlıq məntəqələrinə, səhiyyə müəssisələrinə verilməsi məsləhət görülüb.

**Hüseyn ƏSGƏROV**

Naxçıvan Dövlət Universiteti və İğdır Universitetinin qoşulduğu "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığı" mövzusunda onlayn seminar siyasət, ticarət, mədəniyyət və turizm istiqamətlərində keçirilib.

# "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığı" mövzusunda onlayn seminar





Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxışında qazandığımız zəfərin əldə olunmasında qardaş Türkiyənin Azərbaycana verdiyi psixoloji və mənəvi dəstəyi xüsusi qiymətləndirib. Qeyd edilib ki, bu müharibədə Azərbaycan təkcə öz tarixi torpaqlarını deyil, həm də tarixi ədaləti, döyüş gücünü, xalqımızın müdrikliyini ortaya qoydu. Rektor Azərbaycan-Türkiyə dostluğunun dünya ölkələrinə nümunə olduğunu qeyd edib.

İğdır Universitetinin rektoru Məhmət Haqqı Alma Türkiyənin hər zaman Azərbaycana maddi və mənəvi dəstək olacağına əminliyini bildirib. Rektor xalqımızı Azərbaycanın 44 günlük mübarizədə qalib olması münasibətilə təbrik edib.

Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev çıxışında vurğulayıb ki, Türkiyənin Azərbaycanın yanında olması, ona hər zaman öz dəstəyini göstərməsi Azərbaycanın 30 illik həsrətinə son qoyulmasında böyük rol oynadı.

İğdır Valisi Hüseyn Engin Sarıbrahim, İğdır millət vəkili Dursun Akdemir, Doğu Anadolu Projesi (DAP) rəhbəri Professor Osman Demirdöyen Türkiyənin qardaş ölkə olan Azərbaycana göstərdiyi diplomatik dəstəyinin əhəmiyyətini nəzərə çatdırıblar. Bu zəfərin nəticəsində imzalanmış Bəyanatın Azərbaycan-Türkiyə əlaqələrinin gələcək inkişafı üçün də böyük perspektivlər açdığı vurğulanıb.

**Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

# *"880 illik dəyər – Nizaminin Xəmsəsi"* adlı silsilə tədbirlər yekunlaşıb



"Naxçıvan" Universitetində bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açıb. Bildirib ki, 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Bu münasibətlə dövlət başçısı cənab İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə bu il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilib.

Qeyd olunub ki, bu layihə çərçivəsində 1-5 mart tarixlərdə keçirilən tədbirlərin əsas məqsədi klassik şairimizin zəngin yaradıcılığının gənc nəslə çatdırılması, belə şəxsiyyətlərin milli-mədəni tariximizdəki rolunu onlara aşılamaqdır.

Sonra "Xəmsə" milli intellektual oyunu keçirilib. Dahi şairimiz Nizaminin həyat və yaradıcılığına həsr olunmuş bilik yarışması gərgin mübarizə şəraitində keçib. Nəticələrə əsasən "Qarabağ" komandası I, "Xarı bülbül" komandası II, "Şuşa" komandası III, "Zəfər" komandası isə IV yerə sahib olub.

Tədbirdə 5 gün ərzində seçilən fəal tələbələr və qalib komandalar diplomla təltif edilib.

Sonda universitetin rektoru bir daha Nizami Gəncəvi yaradıcılığının ədəbiyyatımızda xüsusi yeri olduğunu, bu yaradıcılığın mütəmadi olaraq təbliğ və tədqiq edilməsinin zəruriliyini xatırladıb. Belə tədbirlərin il ərzində davam edəcəyi bildirilib.

Bununla da "Naxçıvan" Universitetində keçirilən "880 illik dəyər – Nizaminin Xəmsəsi" adlı silsilə tədbirlər sona çatıb.

Xatırladaq ki, layihə çərçivəsində 5 gün ərzində açılış tədbiri, tələbələrin əl işlərindən ibarət rəsm sərgisi, "Hikmət və nəsihətlər" və "Sirlər xəzinəsi" kitablarının müzakirəsi, "Xeyir və Şər" əsərinin səhnələşdirilməsi və "Xəmsə" milli intellektual oyunu keçirilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

# Döyüş atışlı məşğələlər keçirilir

Əlahiddə Ümumqoşun Orduda zirehli döyüş maşınlarının heyətləri ilə döyüş atışlı məşğələlər keçirilir.



Məşğələlərdə zirehli texnikaların ekipajlarının piyadaların döyüş maşınlarını və zirehli transportyorları idarəetmə vərdişləri təkmilləşdirilir.

Zirehli texnikalar üzrə bilikləri yoxlanılan heyətlər döyüş texnikalarının silahlarından ustalıqla istifadə edərək hədəfləri sərrastlıqla məhv edirlər.

Hazırda təlim mərkəzi və poliqonlarda piyadaların döyüş maşınlarının və zirehli transportyorların ekipajlarının yerinə yetirdiyi tapşırıqların icra vəziyyətinin qiymətləndirildiyi məşğələlər davam edir.

**Nəriman NƏCƏFOV**

# Vaksinasiya işləri davam edir

"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq muxtar respublikanın səhiyyə müəssisələrində də ardıcıl tədbirlər həyata keçirilir. Xüsusi işçi qrupu tərəfindən həyata keçirilən peyvənd ilkin mərhələdə risk qrupuna daxil olan şəxslərə vurulur.

Kəngərli Rayon Mərkəzi Xəstəxanasının, Gigiyena və epidemiologiya şöbəsinin, həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin 130 tibb işçisi "Sinovac" vaksini ilə peyvəndlənib.

Vaksinasiyanın əsas məqsədi ölkədə koronavirus pandemiyasına yoluxmanın qarşısını almaqdır. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə, səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

Qeyd edək ki, Naxçıvan şəhərinin tibb müəssisələrində, o cümlədən rayonlarda səhiyyə işçiləri arasında COVID-19 xəstəliyinə qarşı vaksinasiyanın ilk mərhələsi başa çatıb. Bütövlükdə, 3 min 500 nəfər tibb işçisi vaksinasiya edilib. Təhlükəsizliyinə və effektivliyinə görə seçilən bu vaksinasiyada heç bir narahatlıq müşahidə olunmayıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Hünərləri qələbə qədər böyük olan qəhrəman qadınlarımız

***Tarixin bütün dövrlərində Azərbaycan qadınları həyatımızın bir çox sahələrində mühüm rol oynayıb. Qadın hökmdarımız Tomris, Şərqdə ilk diplomat qadın Sara xatın, Koroğlunun Nigarı, Qaçaq Nəbinin Həcəri, Şah İsmayılın Aləmşahbəyimi, Qaçaq Süleyman adı ilə 200-dən çox qaçağa başçılıq edən Gülsüm xanım xalqımızın tarix səhifələrinə öz adlarını şərəflə yazıblar. Təsadüfi deyil ki, Oğuz türklərinin tarixindən xəbər verən "Kitabi-Dədə Qorqud" dastanında Azərbaycan qadını vətənpərvər, sədaqətli, qoçaq, kişilərlə birlikdə döyüşlərə atılan qeyrət nümunəsi kimi göstərilib. Burla xatın, Banuçiçək və digər qadın obrazları həmişə qadınlarımız üçün bir örnək olublar.***



İctimai fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı, fədakarlığı və qəhrəmanlığı ilə seçilən Azərbaycan qadını bu gün də öz missiyasını ləyaqətlə davam etdirir. Yaşadığı yerdən, işlədiyi vəzifədən asılı olmayaraq, bu gün hər bir azərbaycanlı qadın fədakar, vətənpərvər övladlar yetişdirib Vətən torpağına sipər edir. Odu sinəsinə basıb məğrurluqla söndürür. Yollara dikilən gözlərinə çökən əbədi həsrəti qürurla əvəz edib şəhid olan həyat yoldaşının cənazəsini çiynində əbədiyyətə yola salmağa aparır, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan övladının dəfnində "sənə halal olsun, igidim, torpağımızı azad etdin, qaçmadın düşmənin qarşısından, sinəndən vuruldun, kürəyindən vurulsaydın haqqımı sənə halal etməzdim", – deyib dünyaya nümunə göstərir Azərbaycan qadını! Qəhrəmanın anası, qəhrəmanın həyat yoldaşı ünvanını qazanan, hünəri qələbə qədər böyük olan qəhrəman qadınlarımızdır budəfəki müsahiblərimiz.

Vətən müharibəsində həm qardaşını, həm də həyat yoldaşını itirsə də, *Nargül İbrahimova,* məğrur duruşu ilə dillərə dastan oldu, düşmənə meydan oxudu. Adilindən əmanət qalan iki körpəsini bağrına basıb onlarla ovunur indi... Onunla söhbətimizdə deyir ki, Vətən onu qoruyan igidləri ilə yaşayır, var olur həmişə. Bu gün qardaşımla fəxr edirəm. O, cənnətlə müjdələnəndə heç ağlıma da gəlməzdi ki, bir neçə gün sonra övladlarımın atasını da Vətənə qurban verəcəyik. Ailəmizin iki üzvü, iki əzizi, iki oğlu, iki igidi Vətənin bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucaldı. 20 günün içində... Həyat yoldaşım Adil də, qardaşım Elton da ixtisaslı hərbçi idilər. Həmişə bir idi sözləri, söhbətləri, amalları: Vətənimiz bütövləşsin, düşmən tapdağında inləməsin yurdumuz. Adil altı ilə yaxın bir müddət idi ki, xidməti vəzifəsini yerinə yetirirdi. Adilin son vəzifəsi qrup komandiri və baş kəşfiyyatçı idi. O, döyüşlərdə şücaətlə iştirak edib və noyabrın 7-də qəhrəmanlıqla şəhid oldu. Bakıda II Fəxri xiyabanda dəfn edildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Sərəncamına əsasən Adil İbrahimliyə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi. Ondan mənə yadigar qalan iki körpəm, bir də tarixin səhifələrinə yazdığı qəhrəmanlıq dastanıdır. Mən bundan sonrakı həyatımı Adilin qəhrəman xatirəsini yaşatmağa və övladlarımı böyütməyə həsr edəcəyəm. Və bundan da hər zaman qürur duyacağam.

Nargül xanım onu da deyir ki, o, iki qardaşın bir bacısıdır. Qardaş hər bir bacının ürəyinin şah damarıdır. Elton mənim üçün həm də yaxın dost idi. O, Xüsusi Təyinatlı Qüvvələrin tərkibində kurs keçib, təlimləri həmişə yüksək nəticə ilə başa vururdu. Qardaşım qrup komandirinin müavini və kəşfiyyatçı kimi torpaqlarımızın düşməndən azad edilməsində xüsusi xidmətlər göstərib. Şiddətli döyüşlər zamanı yaralansa da, meydanı tərk etməyib, sonadək döyüşərək şəhid olub. Hazırda kiçik qardaşım da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alır. Bu gün mən həm şəhid bacısı, həm də şəhid yoldaşıyam. Ürəyim nə qədər sızlasa da, başımı dik tuturam. Çünki onlar Vətənin oğul dediyi igidlərdən oldular, illərdir, ürəyimizdə yanan qoru söndürdülər. Qardaşıma xonça bəzəyə bilməsəm də, qəmdən sınmadım, onun ziyarətgaha dönən məzarına torpaq atdım. Balalarımın toyunda ataları ilə birgə qol qaldırıb oynaya bilməyəcəyimin acısını yaşasam da, əyilmədim, onu çiyinlərimdə əbədiyyətə yola saldım. Bununla da bir daha sübut etdim ki, Azərbaycan xalqı, Azərbaycan qadınları yenilməzdir. Bu gün qadınlarımız daha da qürurludur. Çünki nahaq qan yerdə qalmayıb. Ana yurdumuz düşmən tapdağından azad edilib.

*Xuraman Nəcəfova* üç hərbçi, üç igid anasıdır. O deyir: – Övladlarımın uşaqlıq arzuları məndə fəxarət hissi oyadırdı. Çünki onların hər üçü hərbçi olmaq istəyirdi. Bu istəklərini gerçək etdilər. Bir ana üçün övladlarının arzusuna çatmasından daha əziz nə ola bilər ki? Hər dəfə hansı çətinlikdə olsalar da, heç biri mənə bildirməzdi. Hər şey yaxşıdır, deyərdilər. Elə Vətən müharibəsində olduğu kimi. Övladlarımın 3-ü də 44 günlük şanlı tariximizdə öz yerlərini tutdular.

Balaca oğlum Yaqub Nəcəfov döyüşlərdə böyük şücaət göstərib, şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunub.

Bir şəhid, bir qazi anası kimi deyə bilərəm ki, qürurluyam. Düzdür, bir ana üçün övlad itkisindən daha ağır heç nə ola bilməz. Amma Vətən dardadırsa, o övladları qurban verməyin vaxtıdır demək. Çünki Vətən mənim, sənin, onun deyil, bizimdir. Onu qorumaq isə Vətənin igid oğullarının borcudur.

Mən çox qürur hissi keçirirəm ki, belə gözəl övladlarımız sayəsində, bu gün torpaqlarımız işğaldan azad edilib. 44 günlük haqq savaşı bizə bir yumruq olub birləşməyi öyrətdi. Elə bu birliyimizlə də Böyük Qələbəyə nail olduq. Bu gün hər bir Azərbaycan qadını sevinir ki, bir zamanlar qüruru tapdalanan millətimizin qisası alınıb. Azərbaycanın müzəffər, qeyrətli oğulları bu gün məğrurcasına 30 ildir, işğal altında olan torpaqlarımızda xidməti davam etdirir. Onlar arasında ailəmizin bir övladı da onların sırasındadır.

Vətən yolunda mərd, hünərli, qeyrətli oğul şəhid verən digər qəhrəman anamız *İlhamə Seyidova*dır. Bir zamanlar 3 igidə qayğıkeş, fədakar, cəfakeş ana olan İlhamə xanım, indi hər birimiz üçün yenilməz, əyilməz qəhrəman anasıdır. Azacıq da olsa, dərdinə şərik olmaq istəsəm də bacarmıram. Acısı o qədər dərindir ki, onu heç, bir sözlə, ovutmaq mümkün deyil. Bu gün şəhid ailələrinə ən böyük dəstək İlhamə ananın da dediyi kimi, dövlətimizin diqqət və qayğısı, insanların hörmət və ehtiramıdır.

Evin divarından leytenant Nihat Seyidovun böyüdülmüş şəkli asılıb. Nurüzlü şəhidin gözlərində şəhid olmağın məmnunluğu var, sanki... Saçları bəmbəyaz olan ananın üz cizgilərində illərin yorğunluğu görünsə də, çöhrəsində bir o qədər də xanımlıq, müdriklik, əyilməzlik, mübarizlik iz salıb. İlhamə xanıma əsl Azərbaycan qadını adına layiq olan şəhid analarından yazı hazırlamaq üçün gəldiyimi bildirdikdə – "mənim igid oğlum, qəhrəman oğlum Nihat Seyidov mənə ömürlük şərəfli "şəhid anası" adı qazandırdı. Nihatla uşaqlıqdan qürur duymuşam, fəxr etmişəm, yoxluğu ilə barışmaq nə qədər ağır olsa da, bu gün də qürur duyuram, fəxr edirəm", – dedi. Açığı, bu sözdən sonra nə deyəcəyimi bilmədim. Sadəcə düşündüm: "Biz necə də xoşbəxt gənc xanımlarıq ki, bizə örnək olan, əsl Azərbaycan qadını adına layiq qəhrəman analarımız, ali, müdrik xanımlarımız var". İlhamə xanım deyir ki, şəkillərinə baxıram. Bütün şəkillərdə gülür. Təbəssümü adamın ürəyini dağlasa da ağlamıram. Qəhrəman oğlumun səsi qulaqlarımda cingildəyir. "Ağlama, ana! Mən ölməmişəm, şəhidlik zirvəsinə ucalmışam".

Şəhid Kənan Quliyevin həyat yoldaşı *Aysel Quliyeva* ilə həmsöhbət olduq. O bildirdi ki, Vətən müharibəsi minlərlə Vətən övladı kimi Kənanın da torpaq təəssübkeşliyini, millət sevgisini, düşmənə nifrət hissini daha da alovlandırdı. Kənan könüllü olaraq özünü odlu cəbhəyə atdı və öz qanı ilə Azərbaycanın şanlı hərb tarixinə adını yazdı, ata-baba torpaqlarımızın geri alınması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı. Prezidentimiz cənab İlham Əliyevin sərəncamları ilə müharibədə göstərdiyi şücaətlərə görə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olundu. Kənan mənə iki il elə vəfalı, sadiq, qədirbilən həyat yoldaşı olub ki, mən ömürboyu onun xoş xatirələri ilə ovunacam. Qəlbimdə daim yaşayacaq. O, müqəddəs şəhidlik məqamı ilə elimizə, obamıza şərəf gətirdi və öz arzusuna çatdı. Torpaqlarımız Kənan kimi mərd, igid, Vətənini könüldən sevən oğulların sayəsində azadlığına qovuşdu.

Bu gün Azərbaycan qadını tarixin heç bir dövründə olmadığı qədər güclü, qürurludur. Çünki o, illərdir, çəkdiyi zəhmətin bəhrəsini gördü. Çünki onun oğulları, qardaşları, həyat yoldaşları illər öncə xəyanət ucbatından itirilən torpaqları geri qaytardı. Yurdumuzu ana Vətənimizə qaytarmaqla illər öncə alnımıza yazılan ləkəni sildi. O igidlər ki Vətəni öz anası, yarı bildi, onun bütövlüyü uğrunda canından keçdi.

*Bu Vətənə, bu torpağa belə igid ərənlər bəxş etdiyin üçün baş əyirik qarşında, Azərbaycan qadını! Bu Böyük Qələbədə əvəzsiz payı olan, vüqarı, məğrurluğu ilə hər zaman yenilməz Azərbaycan anası! Bundan belə üzün gülsün hər zaman! Sevinc nəsibin olsun!*

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Gülcamal TAHİROVA**
**✍ Telli MƏMMƏDOVA**
**✍ Aytac CƏFƏRLİ**

*Xalq təqvimi*

## Yelli, güllü, bərəkət ətirli çərşənbə

## *Yel kultu arxaik mifoloji təsəvvürlərdə*

*Üçüncü ilaxır çərşənbəmiz olan Yel çərşənbəsində yelin ayılması, əsməyə başlaması bəzi təsərrüfat işlərinin də sahmana salınmasını zəruri edir. Əvvəllər Xırman mərasiminin icrasında da yelin, küləyin funksiyası aparıcı mövqe daşıyırdı. Xalq arasında "Küləkli hava gərəkli olar" atalar sözü də bu məqamı təsdiqləyir. Və ya "Xırmanın yelsiz qalmasın" kimi alqış nümunəsi də yelin təsərrüfat əhəmiyyətini bir daha sübuta yetirir.*

Yel çərşənbəsinə bəzən xalq arasında "toz çərşənbə" də deyirlər. Təbiət qüvvələrinə etiqadla yanaşan etnos təbiətə hörmətini, ondan imdad, kömək istəyini müxtəlif ayinlərlə ifadə etmişdir. Təbiətdən kömək uman, aman diləyən xalq əzizləmə xarakterli adlarla da bu məqsədini açıq-aydın büruzə verir. Yelin təsərrüfata gərəkli olduğunu düşünən xalq onu əzizləyərək "külək oyadan çərşənbə", "küləkli çərşənbə", "yelli-güllü çərşənbə", "yelli çərşənbə" də adlandırmışdır.

Azərbaycan xalqının folklor örnəklərinə əsasən söyləmək olar ki, yel çərşənbəsi zamanı müxtəlif ayin və mərasimlərin icrası mütləqdir. Xalq düşüncəsində yelin müqəddəs anlam daşıması xalqımızın şifahi təfəkküründə uzun müddət başlıca mövqe tutmuşdur. Naxçıvan ərazisindən toplanmış folklor örnəklərinə əsasən söyləmək mümkündür ki, xalqın folklor yaddaşında Yel kultu – Yel əyəsi ilə bağlı maraqlı mifik mətnlər, inanc-sınama nümunələri mövcuddur. Belə ki, xalqın folklor yaddaşında Yel çərşənbəsi zamanı yel əyəsinin ayıldığına inanc dolaşmaqdadır. Biz əyə kultuna, sözünə Naxçıvan ərazisində daha çox rast gəlirik. Xalq belə deyir: "Yel çərşənbəsində yel ayılır, külək əsir, havanın ağırrığı sınır". Bu inanclar qədim türklərdə yelin kult səviyyəsində olduğunu nümayiş etdirir. Yelin "baba" hesab edilməsi xalqımızın şifahi təfəkküründə uzun zamanlar başlıca mövqedə olmuşdur.



Əvvəldə qeyd etdiyimiz kimi, Yel çərşənbəsində, ümumiyyətlə, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində bir-birindən maraqlı ayin və mərasimlər icra edilməkdədir ki, bunların çoxunda Yel Tanrısına sitayiş əks olunur. Evlərdəki paltar-palazın təmiz havaya çıxarılıb tozunu təmizləmək, "Xırman" mərasiminin aktual olduğu vaxtlarda taxılın biçilib xırmana yığılması ilə icra olunan "Yel baba" mərasimi Yel Tanrıçılığına inamı təsdiqləyir. Yel çərşənbəsi zamanı qəbirüstü ziyarətlər də təşkil olunur. Belə ki, dünyadan köçən insanların xatırlanması münasibətilə ehsanlar bişirilib paylanır, qəbirləri ziyarət edilir. Həmin ildə yas düşən evin sakinləri yasdan çıxarılır. Muxtar respublikamızın Ordubad rayonunda buna "paxır bayramı" deyilir. Belə ki, bu çərşənbəyədək qırxı çıxmayan mərhumun evinə yaxınlar, qohumlar toplaşır. Onun ailə üzvləri ilə birgə evdə bayrama hazırlıq görürlər. Bayrama münasib şirniyyatlar bişirilir, evin sakinlərinə təzə geyimlər geyinmək, qara libasları Novruz əhval-ruhiyyəli libaslarla əvəzləmək tövsiyə olunur. Beləliklə, həmin ailə də ərazidəki digər ailələr kimi sosial birlikdən, el-obanın bayram əhval-ruhiyyəsindən kənarda qalmır.

Xalqımızın şifahi yaddaşında yaşayan, yel kultuna tapınmanı ifadə edən atalar sözləri diqqətçəkəndir:

*Yel qayadan nə aparar?!*
*Yelnən gələn selnən gedər.*
*Alçaxda yatma – sel aparar,*
*Ucada yatma – yel aparar.*
*Kələklə gələn, küləklə gedər.*

Yel baba obrazı muxtar respublikamızın ərazilərindən toplanmış inanc nümunəsində öz maraqlı əksini tapmaqdadır. Xalq belə deyər: "Yel çərşənbəsi gecəsi söyüd ağacının altına keçib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün yarpaqları ağaca toxunsa, diləyin gerçəkləşər".

Yel çərşənbəsində ayılan yelin, küləyin təsiri ilə təbiətə güc-qüvvət, yeni nəfəs gəlir. Qışda "ölən" təbiəti Boz ayda oyadan 4 ünsür – Su, Torpaq, Yel, Od yeni təbiətin carçısı kimi xalq yaddaşında güc-qüvvət rəmzi olaraq yaşamaqdadır.

Uca Tanrı ömrünüzə nur qatsın, sağlam həyat, sağlam ruh diləyiniz gerçək olsun! Yelli-güllü çərşənbənin yeni nəfəsli, yeni ruhlu qədəmləri uğurlu olsun!

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

### İtmişdir

Fərzəliyev Mərhəmət Məmməd oğlunun adına olan Əmək kitabçası itdiyindən etibarsız sayılır.

* * *

Ağayev Bəhlul Hacı oğlunun adına olan AD-0044103 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 219